

# Vilayət HACIYEV

Amansız ölüm qələm yoldaşımız Vilayət Hacıyevi aramızdan apardı.

Vilayət Tapdıq oğlu Hacıyev 1950-ci il aprelin 1-də Qazax rayonunun Sofulu kəndində anadan olmuşdur. 1966-cı ildə Qazax şəhər 1 saylı orta məktəbini bitirmiş və elə həmin ildəAzərbayca Dillər Universitetinin alman dili fakültəsinə daxil olmuşdur. Universiteti 1971-ci ildə bitirdikdən sonra bir il Daşkəsən rayonunda alman dili müəllimi işləmişdir. 1973-cü ildən 2017-ci ilə qədər Azərbaycan Dillər Univesitetində dərs demişdir. Daha sonra Azərbaycan Dövlət Tərcümə Mərkəzində idarə heyətinin sədr müavini vəzifəsində çalışıb.

Alman dilindən Azərbaycan dilinə və əksinə bədii tərcümə fəaliyyəti ilə tələbəlik illərindən məşğul olmuşdur. 70-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan mətbuatında tərcümələri nəşr olunub. Azərbaycan oxucuları "Azərbaycan", "Ulduz", "Xəzər" jurnallarında, eləcə də "Ədəbiyyat qəzeti"ndə V.Borxert, Z.Lents, Haynrix Böll, Stefan Sveyq, Frans Kafka və s. kimi görkəmli alman və Avstriya yazıçılarının yaradıcılığından nümunələrlə onun vasitəsilə tanış olmuşlar. Erix Mariya Remarkı "Zəfər tağı", Herman Hessenin "Yalquzaq", Lion Feyxtvangerin "Lautenzak qardaşları", Haynrix Böllün "Seçılmiş əsərləri", Frans Kafkanın "Məhkəmə", Ziqfrid Lentsin "Məhəbbət yuvası", Stefan Sveyqin "Tarixi miniatürlər", Daniel Keelmanın "Dünyanın arşını", Mixael Kumpfmüllerin "Həyatın möhtəşəmliyi" və s. kitablar onun tərcüməsində işıq üzü görüb. Azərbaycan yazıçıları Yusif Səmədoğlunun, Anarın, Orxan Fikrətoğlunun və başqa yazıçılarımızın nəsr nümunələri onun almancaya çevirməsində Avropa ölkələrində çap olunub. 2012-ci ildə Frans Kafkanın "Məhkəmə" romanını mükəmməl tərcümə etdiyinə görə Avstriyanın "Tərcümə Mükafatı"nı, eləcə də Azərbaycan Yazıçılar Birliyinin "Tofiq Bayram" mükafatını alıb. 2019-cu ildə H.Böllün "Kişisiz ev" romanının Azərbaycan dilinə uğurlu tərcüməsinə görə "Qızıl kəlmə" mükafatına layiq görülüb. 2020-ci ildə Azərbaycan Dövlət Tərcümə Mərkəzinin "Fəxri Diplom"u, Avstriya Federal Prezidenti Avstriyanın federal Elm, Tədqiqat və İqtisadiyyat nazirinin təqdimatı əsasında "Avstriyanın elm və incəsənət sahəsində I dərəcəli fəxri xaç" ordeni ilə təltif edib.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Vilayət Hacıyevin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 8 aprel.- S. 32.